

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 100(23.987)

*1 iyun 2022-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğanın görüşü olub. Görüşdə Azərbaycan-Türkiyə ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb. Türkiyə Prezidenti Rəcəb Təyyib Ərdoğanın Azərbaycana səfərinin əlaqələrimizin daha da möhkəmlənməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub. Söhbət zamanı 28 May – Müstəqillik Günündə Azərbaycan və Türkiyə dövlət başçılarının bir yerdə olması qardaşlığımızın rəmzi kimi qiymətləndirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğan həmin gün Bakıda 7 saylı "ASAN xidmət" mərkəzinin və "Bilim Bakı" mərkəzinin açılışında iştirak ediblər. Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğan Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" Aerokosmik və texnologiya festivalında iştirak ediblər. Dövlət başçıları festivalda çıxış ediblər.

***

Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Müstəqillik Günü münasibətilə ziyarət edib. Dövlətimizin başçısı abidənin önünə gül dəstəsi qoyub.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Laura Loxmanı qəbul edib.

***Muxtar respublikada son dövrlər həyata keçirilən ardıcıl tədbirlər, qəbul edilmiş Dövlət proqramlarının uğurlu icrası, yeni istehsal və xidmət sahələrinin fəaliyyətə başlaması yeni iş yerlərinin yaradılmasına, əhalinin məşğulluğunun təmin edilməsinə, sahibkarlığın inkişafına əlverişli şərait yaratmışdır.***

*"Sənaye ili" – 2022*

# Sahibkarlığın inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir



İqtisadiyyatın davamlı inkişafının təmin edilməsində sahibkarlığın önəmli rol oynadığını vurğulayan Ali Məclisin Sədri demişdir: ***"Dövlətin məqsədi aydındır: sahibkarlıq inkişaf etdirilməli, yeni iş yerləri açılmalı və yerli istehsalın həcmi artırılmalıdır. Hər bir sahibkar da ölkəmizdəki sabitlikdən, özəl sektora göstərilən dövlət qayğısından bəhrələnərək iqtisadi inkişafa öz töhfəsini verməlidir".***

Həyata keçirilən tədbirlərin nəticəsi olaraq iqtisadiyyatın əsas inkişaf göstəricisi sayılan ümumi daxili məhsul istehsalı 2022-ci ilin yanvar-aprel aylarında 776 milyon 670 min 600 manat olmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövründəki göstəricini 9,2 faiz üstələmişdir. Cari ilin ilk dörd ayında ümumi daxili məhsulda özəl bölmənin payı 85,9 faiz təşkil etmişdir.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 1676,8 manat təşkil etmişdir. Bu da 2018-ci ilin müvafiq dövründəki göstəricidən 6,8 faiz çoxdur. Ümumi daxili məhsulun 55 faizdən çoxu istehsalın payına düşmüşdür.

Özəl sektorun inkişafında və iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasında sənaye mühüm yer tutur. Bu sahənin inkişafına göstərilən dövlət dəstəyinin nəticəsidir ki, cari ilin yanvar-aprel aylarında istehsal edilmiş sənaye məhsulunun həcmi 2018-ci ilin müvafiq dövründəki göstəricini 9,8 faiz üstələyərək 354 milyon 200 min 800 manat olmuşdur.

Sənaye məhsulu istehsalının 92,9 faizi malların, 7,1 faizi isə xidmətlərin payına düşmüşdür. İstehsal olunan sənaye məhsulunda özəl bölmənin payı 90,9 faiz təşkil etmişdir.

2022-ci ilin Naxçıvanda "Sənaye ili" elan olunması, Şərur Sənaye Məhəlləsində görülən işlər və yaradılması davam etdirilən digər istehsal sahələri sahibkarlığın inkişafına və sənayenin şaxələndirilməsinə yeni imkanlar açacaqdır.

Sahibkarlığın inkişafında və ərzaq təhlükəsizliyinin təmin olunmasında aqrar sahənin rolu böyükdür. Muxtar respublikada bu sahənin inkişafı diqqətdə saxlanılır, torpaq mülkiyyətçiləri və fermerlər müasir texnika və texnoloji avadanlıqlarla, mineral gübrələrlə təmin edilirlər.

Həyata keçirilən tədbirlərin nəticəsi kimi 2022-ci ilin yanvar-aprel aylarında 2018-ci ilin müvafiq dövründəki göstəriciyə nisbətən 20,1 faiz çox, yəni 46 milyon 559 min 100 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur.



Məhsul istehsalının 100 faizə yaxını qeyri-dövlət sektorunda qeydə alınmışdır.

Cari ilin ilk dörd ayında kənd təsərrüfatı sahəsi ilə məşğul olan təsərrüfat subyektlərinə, ümumilikdə, 6 milyon 145 min 300 manat kredit verilmişdir ki, bu da 2018-ci ilin müvafiq dövründəki göstəricini 3 dəfə üstələmişdir.

Muxtar respublikada son illər diqqət mərkəzində saxlanılan fəaliyyət sahələrindən biri də ailə təsərrüfatlarıdır. Sahibkarlarla son görüşdə ***"Sahibkarlığın inkişafından danışarkən ailə təsərrüfatları modeli, xüsusilə qeyd olunmalıdır"*** , – deyən Ali Məclisin Sədri bildirmişdir ki, bu gün muxtar respublikada ailə təsərrüfatlarının inkişafı özünüməşğulluğu təmin etməklə yanaşı, həm də kiçik və orta sahibkarlığın inkişafına zəmin yaradır. Eyni zamanda özünüməşğulluq tədbirləri sırasında əhalinin aztəminatlı təbəqəsi aktiv əməyə cəlb edilir, dövlət tərəfindən bu kateqoriyadan olan ailələrə dəstək göstərilir. Ailə təsərrüfatlarının inkişafı, istehsal olunmuş məhsulların satışının təmin edilməsi məqsədilə mütəmadi olaraq ailə təsərrüfatı məhsullarının satış yarmarkaları keçirilir.

Qeyd edək ki, sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün muxtar respublikada 384 növdə məhsul istehsal olunur. Bu məhsulların 127-si ərzaq, 257-si qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilmişdir.

Sənaye və kənd təsərrüfatı sahələri ilə yanaşı, iqtisadi fəaliyyətin digər sahələrində də sahibkarlıq subyektləri tərəfindən görülən işlər səmərəli məşğulluğun təmin edilməsinə, ümumilikdə, muxtar respublikanın davamlı inkişafına yeni imkanlar yaratmışdır.

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, əlverişli biznes mühitinin yaradılması, o cümlədən kiçik və orta sahibkarlığın inkişafına maliyyə dəstəyinin göstərilməsi məqsədilə təkcə 2022-ci ilin yanvar-aprel aylarında muxtar respublikada sahibkarlara 18 milyon 644 min 800 manat kredit verilmişdir. Verilmiş kreditin 9 milyon 886 min manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 8 milyon 758 min 800 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunmuşdur. Bu dövr ərzində 5 hüquqi və 911 fiziki şəxs qeydiyyata alınmışdır. Ümumilikdə, 2022-ci ilin yanvar-aprel aylarında muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 53 layihə üzrə istehsal və xidmət obyektləri yaradılmış, 49 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması isə davam etdirilmişdir.

Sahibkarlığın inkişafı, yeni istehsal və xidmət sahələrinin yaradılması əmək bazarında əhəmiyyətli dərəcədə müsbət dəyişiklik yaratmışdır. Belə ki, 1 may 2022-ci il tarixə ümumi əhalinin 254,4 min nəfərini məşğul əhali təşkil etmişdir ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 7,8 faiz çoxdur.

Artan əhali tələbatına uyğun olaraq yaradılan istehsal və xidmət sahələri yeni məhsul növlərinin istehsalının təmin olunmasına, kiçik və orta sahibkarlıq fəaliyyətinin stimullaşdırmasına, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına, ümumilikdə, muxtar respublikanın iqtisadi potensialının gücləndirilməsinə zəmin yaradır.

*Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti*

## *"Nağdsız ödəniş qazandırır"* kampaniyasının qalibləri mükafatlandırılıb



"Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti sərfəli və nümunəvi xidmətləri ilə muxtar respublika sakinlərinin məmnunluğunu qazanıb. Əhali arasında nağdsız ödənişlərin stimullaşdırılması məqsədilə bank tərəfindən daim yeniliklər edilir. "Nağdsız ödəniş qazandırır" kampaniyası da maraqlı layihələrdən biridir. Belə ki, bu kampaniya istənilən "Naxçıvanbank" kartı ilə minimum 20 manat nağdsız ödəniş etməklə bir-birindən dəyərli hədiyyələrin sahibi olmaq şansı verir. Naxçıvan Biznes Mərkəzində "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti, "Cahan" AVM, Gəmiqaya satış mərkəzi və "Çəmən" marketin sponsorluğu ilə 20 mart-20 may tarixlərdə təşkil olunan "Nağdsız ödəniş qazandırır" kampaniyasının yekun mükafatlandırma mərasimi təşkil edilib.

Tədbirdə "Naxçıvanbank" ASC İdarə Heyətinin sədri vəzifəsini icra edən İsa İsayev, sədr müavini Rafiq Xəlilov, Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəis müavini Fərrux Əkbərov, Azərbaycan Respublikası Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İdarə Heyətinin sədr müavini Emin Quliyev, "Cahan" AVM-in icraçı direktoru Cəlaləttin Bal çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, "Naxçıvanbank" ASC muxtar respublika daxilində nağdsız hesablaşmaların həcminin artırılması, elektron ödəniş xidmətlərindən istifadənin əhatə dairəsinin genişləndirilməsi məqsədilə stimullaşdırıcı kampaniya elan edib və muxtar respublika üzrə 45 şəxs qalib seçilib. Kampaniya dövründə bank tərəfindən yalnız öz kart müştərilərinə deyil, sahibkarlara da diqqət göstərilib, onlara kampaniyanın keçirilməsinə dəstək olması üçün müəyyən həvəsləndirici tədbirlər görülüb. Belə ki, kampaniya dövründə ən çox dövriyyə etmiş sahibkarlar müəyyən edilib və onlara müxtəlif məhsul və xidmətlərə dair endirimlər tətbiq edilməsi üçün güzəşt kartı təqdim olunub. Tədbirdə daha çox nağdsız ödənişlər edən muxtar respublika sakinləri mükafatlandırılıb.

Güntac ŞAHMƏMMƏDLİ

# Muxtar respublikada uşaq hüquqları qorunur

*Naxçıvan Muxtar Respublikasında uşaqlara hərtərəfli qayğı göstərilir, onların təhsili, sağlamlıqlarının qorunması, istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtının və tərbiyəsinin düzgün təşkili və cəmiyyətin ictimai-mədəni həyatındakı iştiraklarının təmin edilməsi diqqətdə saxlanılır. Bu gün muxtar respublika əhalisinin 36 faizi və ya 165 min 740 nəfəri uşaqdır. Bunlardan 1909-u sağlamlıq imkanları məhdud, 65-i hər iki valideyni vəfat etmiş və valideyn himayəsindən məhrum, 55-i şəhid uşaqlarıdır.*

Muxtar respublikada uşaqların təhsili, onların sağlamlıqlarının qorunması, fiziki inkişaflarının təmin olunması ilə yanaşı, uşaq hüquqlarının qorunması istiqamətində də ardıcıl tədbirlər görülmüşdür. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası" təsdiq edilmiş, uşaq hüquqlarının müdafiəsi üçün dövlət qurumları arasında koordinasiya və nəzarət sistemi təkmilləşdirilmiş, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə ekspert qrupu yaradılmışdır. Ekspert qrupu tərəfindən ötən il və bu ilin müvafiq dövrü ərzində 40 uşaq müəssisəsində dövri monitorinq keçirilmişdir.

Muxtar respublikada valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar da xüsusi qayğı ilə əhatə olunur, himayə və qəyyumluğa verilən müvafiq uşaqların evlərində mütəmadi olaraq monitorinqlər təşkil edilir, yaşayış şəraitləri öyrənilir, zəruri ehtiyacları üçün lazımi köməklik göstərilir. Ötən il və cari il ərzində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən valideyn himayəsindən məhrum olmuş 30 uşağın yaşadığı ünvanlarda monitorinqlər keçirilmişdir. Həmçinin qeyd olunan dövr ərzində 2 uşaq övladlığa, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 24 uşaq isə qəyyumluq və ya himayəyə verilmişdir ki, hazırda muxtar respublikada 65 valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaq vardır.

Bu kateqoriyadan olan uşaqlara göstərilən qayğının nəticəsidir ki, 2020-2021-ci tədris ilində ümumtəhsil məktəblərini bitirmiş 2 uşaq ali məktəbə, 2 uşaq isə orta ixtisas təhsili müəssisəsinə qəbul olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı təşkil edilmiş, indiyədək 38 minə yaxın uşaq haqqında fərdi məlumatlar banka daxil edilmişdir.

Sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi, cəmiyyətə fəal inteqrasiyası məqsədilə bu gün muxtar respublikada müvafiq tədbirlər həyata keçirilir. Belə ki, "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı" qəbul edilmiş, hazırda bu proqramın icrası ilə bağlı işlər görülür. Müvafiq uşaqlarla bağlı görülən tədbirlərin nəticəsidir ki, 2021-2022-ci tədris ilində ümumtəhsil müəssisələrinin birinci siniflərində 56, ümumtəhsil məktəblərində fəaliyyət göstərən hazırlıq qruplarında 37 uşaq olmaqla, ümumilikdə, ümumtəhsil məktəblərində müvafiq kateqoriyadan olan 992 uşaq təhsil alır ki, bu da məktəbyaşlı sağlamlıq imkanı məhdud olan uşaqların 60,45 faizi deməkdir. Əlavə olaraq Distant Tədris Mərkəzində 15 uşaq olmaqla onların 3-ü birinci sinifdə, Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə 7, məktəbdənkənar müəssisələrin dərnəklərində 169, məktəbdənkənar müəssisələrdə təşkil olunan müxtəlif kurslarda isə 63, şahmat məktəblərində 60, idman məktəblərində 166, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində 80 sağlamlıq imkanları məhdud uşaq təhsil alır. Komitə tərəfindən müvafiq uşaqların əqli və fiziki potensialları nəzərə alınmaqla məktəbəqədər və ümumtəhsil müəssisələrinə cəlb edilməsi məqsədilə bu dövr ərzində 177-yə yaxın sağlamlıq imkanları məhdud uşaqların yaşadıqları evlərdə monitorinq keçirilmiş, valideynlərlə geniş maarifləndirici söhbətlər aparılmış, qanunamüvafiq izahat verilmiş, 80-ə yaxın uşaq potensialına uyğun olaraq ümumtəhsil məktəblərinə və məktəbəqədər müəssisələrə cəlb edilmişdir. Bundan əlavə, ötən il və cari il ərzində 150 uşaq müəssisəsində monitorinqlər aparılmış və 900-dən artıq sağlamlıq imkanları məhdud uşağın təhsil hüququ yoxlanılmışdır. Sağlamlıq imkanları məhdud uşaqların bacarıq, imkan və maraqları nəzərə alınaraq 23 uşaq peşə məktəblərinə cəlb edilmiş, ümumtəhsil məktəblərini bitirən sağlamlıq imkanları məhdud uşaqlardan 2 nəfəri orta ixtisas təhsili müəssisəsinə, 14 nəfəri isə ali təhsil müəssisələrinə qəbul olmuşdur.

Sağlamlıq imkanları məhdud uşaqların istedadlarının üzə çıxarılması, asudə vaxtlarının səmərəli təşkili, eləcə də cəmiyyətin ictimai-mədəni həyatındakı iştirakını təmin etmək məqsədilə onlar arasında intellektual oyunlar, idman yarışları, rəsm və şeir müsabiqələri keçirilmiş, sağlamlıq imkanları məhdud uşaqların əl işlərindən ibarət sərgi-satış təşkil olunmuşdur.

Mütəmadi olaraq məktəblərdə və ictimaiyyət arasında uşaq hüquqlarının qorunması ilə əlaqədar maarifləndirmə tədbirlərinə daha da üstünlük verilmiş, görüş və seminarlar keçirilmişdir. Keçirilən tədbirlər zamanı, həmçinin uşaqlara milli-mənəvi dəyərlərimiz, vətənpərvərlik, məktəbdaxili nizam-intizam qaydaları və Azərbaycan xalqına xas olan adət-ənənələr, milli mentalitetimiz aşılanmış və müxtəlif mövzularda görüşlər təşkil edilmişdir.

Muxtar respublikada uşaqlara göstərilən diqqət və qayğının nəticəsidir ki, dövlət uşaq müəssisələrində valideynləri tərəfindən tərk edilmiş, erkən nikaha və uşaq əməyinə cəlb olunmuş, təhsildən yayınan, hüquq pozan, cinayət məsuliyyətinə cəlb olunmuş uşaq yoxdur.

Sabahımız olan uşaqların hüquqlarının həyata keçirilməsinə nəzarət edən dövlət orqanları bundan sonra da fəaliyyət istiqamətlərinə uyğun olaraq uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquqlarının və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması ilə əlaqədar fəaliyyətlərini gücləndirəcək, öz üzərlərinə düşən vəzifələrin icrasını daim diqqətdə saxlayacaqdır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbirlər olub



1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi muxtar respublikanın rayonlarında rayon İcra hakimiyyətləri ilə birgə tədbirlər keçirmişdir. Tədbirlərdə muxtar respublikada aparılan dövlət uşaq siyasətinin uğurlarından ətraflı bəhs olunmuşdur. Qeyd edilmişdir ki, göstərilən qayğının nəticəsi olaraq 2020-2021-ci tədris ilində ümumtəhsil məktəblərini bitirmiş şagirdlərdən 1621-i ali təhsil müəssisələrinə, 342-si orta ixtisas təhsili müəssisələrinə qəbul olmuşdur. Hazırda ölkədaxili və ölkədənkənar bilik yarışlarının qalibi olmuş uşaqların sayı ildən-ilə artır, Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na adları qeyd edilmiş uşaqların sayı isə 15 olmuşdur ki, həmin uşaqlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin aylıq təqaüdünə layiq görülmüşlər.

Diqqətə çatdırılmışdır ki, muxtar respublikada uşaq hüquqlarının müdafiəsi üçün dövlət qurumları arasında koordinasiya və nəzarət sistemi təkmilləşdirilmiş, monitorinq qrupu fəaliyyətə başlamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası da nəzarətdə saxlanılmışdır. Dövlət uşaq siyasətinin nəticəsidir ki, muxtar respublikada fəaliyyət göstərən müvafiq uşaq müəssisələrində atılmış uşaq, həmçinin 18 yaşadək olan yeniyetmələr tərəfindən hüquq pozan və cinayət məsuliyyətinə cəlb olunan uşaq yoxdur. Digər müsbət göstərici isə muxtar respublikada uşaq əməyindən istifadə hallarının qeydə alınmamasıdır.

Çıxış edənlər muxtar respublikada uşaqlara göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlıqlarını bildirmiş və əlamətdar gün münasibətilə uşaqları təbrik etmişlər.

Rayonlar üzrə 2021-2022-ci tədris ilində müxtəlif sahələrdə nailiyyətlər qazanan uşaqlar təşkilatçılar tərəfindən fəxri fərman və hədiyyələrlə təltif olunmuşlar.

Tədbirlər uşaq musiqi kollektivlərinin hazırladıqları bədii hissə ilə davam etmiş, istedadlı uşaqların əl işlərindən ibarət sərgilərə baxış olmuşdur.



* * *

1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Mədəniyyət, Təhsil, Səhiyyə nazirliklərinin və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində tədbir keçirilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev, təhsil naziri Rəhman Məmmədov, səhiyyə nazirinin müavini Samrat Gəncəyeva çıxış edərək muxtar respublikada uşaqlara göstərilən dövlət qayğısından danışmış, uşaqları əlamətdar gün münasibətilə təbrik etmişlər. Bildirmişlər ki, muxtar respublikada bütün uşaqların, o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası, sağlamlıqlarının qorunması, təhsil almaları, asudə vaxtlarının səmərəli təşkil edilməsi daim diqqət mərkəzində saxlanılır, bu istiqamətdə lazımi tədbirlər həyata keçirilir.

Sonra Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinin direktoru Rəsmiyyə Xasıyeva uşaqlara göstərilən qayğıya görə mərkəzin kollektivi və valideynlər adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmişdir.

Tədbirdə mərkəzin uşaqları ilə bərabər Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbində təhsil alan uşaqlar da iştirak etmişdir.

Sonra uşaqlara hədiyyələr təqdim olunmuşdur.

Tədbirin bədii hissəsində uşaqlara Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının aktyorlarının ifasında səhnəciklər nümayiş etdirilmişdir.

* * *

Dünən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov muxtar respublikada uşaqlara göstərilən hərtərəfli dövlət qayğısından danışıb.

Qeyd olunub ki, yaradılan şəraitin, uğurlu təhsil islahatlarının və həyata keçirilən tədbirlərin nəticəsidir ki, ümumtəhsil məktəbləri ilə yanaşı, məktəbdənkənar təhsil müəssisələrində də uşaqların yaradıcı bacarıqları inkişaf etdirilir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı əsasında Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində, Şərur, Ordubad və Culfa rayonlarının məktəbdənkənar təhsil müəssisələrində innovativ dərnəklər yaradılıb, dərnəklər zəruri avadanlıqlarla təchiz edilib. Hazırda Babək və Şahbuz rayonlarının məktəbdənkənar təhsil müəssisələrində də bu sahədə işlər davam etdirilməkdədir. Sağlamlıq imkanları məhdud uşaqların da cəmiyyətə və təhsilə inteqrasiyası diqqətdə saxlanılıb, məhdud fiziki imkanlı uşaqlar üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin nəzdində Distant Tədris Mərkəzi yaradılıb, inklüziv təhsilin əhatə dairəsi genişlənib.



Təhsil naziri muxtar respublikada uşaqlara göstərdiyi diqqət və qayğıya, onların təhsili üçün yaratdığı şəraitə görə təhsil işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib, balaca fidanları Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə təbrik edib.

Tədbirin bədii hissəsində Naxçıvan şəhərində fəaliyyət göstərən körpələr evi, uşaq bağçalarında təlim-tərbiyə alan uşaqların ifasında şeir, rəqs, musiqi nömrələri səsləndirilib. Balaca fidanların ulu öndər Heydər Əliyevə, Vətənə aid şeirləri, "Xarıbülbül", "Dostluq himni", "O Naxçıvandır", "Azərbaycan" və digər mahnı, rəqs nümunələri iştirakçılarda xoş ovqat yaradıb, alqışlarla qarşılanıb.

Tədbirin sonunda uşaqlara hədiyyələr təqdim olunub.

* * *

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublika Xəstəxanasında 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə hemofiliya, talassemiya və leykoz xəstəliklərindən əziyyət çəkən uşaqlar üçün qanvermə aksiyası keçirilib.

Aksiyada müvafiq təşkilatların əməkdaşları qanvermədən əvvəl tibbi müayinədən keçirilib, donorlardan qan nümunələri götürülüb, infeksion xəstəliklərə qarşı yoxlamalar aparılıb. Ümumilikdə, 23 nəfərdən 11,5 litr qan toplanaraq xəstəxananın qan bankına təhvil verilmişdir. Aksiyanın keçirilməsində əsas məqsəd muxtar respublikada yaşayan irsi qan xəstəliyi olan sağlamlıq imkanları məhdud uşaqlara yardım göstərmək, onlara dəstək olmaqdır.

**Xəbərlər şöbəsi**

## Beynəlxalq Azərbaycan-ABŞ arxeoloji ekspedisiyası Naxçıvanın tarixi ilə bağlı uğurlu nəticələr əldə etmişdir





Tarix və mədəniyyət abidələrinin araşdırılmasına dövlət qayğısı gündən-günə artmaqdadır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyəsi ilə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi tarix və mədəniyyət abidələrinin öyrənilməsi ilə bağlı arxeoloji ekspedisiyaları davam etdirməkdədir. AMEA Naxçıvan Bölməsi və ABŞ-ın Pensilvaniya Universitetinin birgə təşkil etdiyi arxeoloji ekspedisiya 2006-cı ildən Naxçıvanda arxeoloji tədqiqatlar aparmaqdadır. İndiyədək dünya arxeologiyasında bir çox elmi yeniliyə imza atan ekspedisiya may ayının 24-dən Sədərək rayonunda və qədim Kültəpə yaşayış yerində AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev və Pensilvaniya Universitetinin professoru Lauren Ristvetin rəhbərliyi ilə tədqiqatlara başlamışdır. Tədqiqatlar zamanı uğurlu nəticələr əldə edilmiş, şəhər strukturunun, o cümlədən ictimai binaların qalıqları, dəyərli keramika nümunələri, insanların təsərrüfat həyatını əks etdirən maddi mədəniyyət nümunələri aşkar olunmuşdur. Aşkar edilmiş arxeoloji materiallar Naxçıvanın eramızdan əvvəl IX-VII əsrlərə aid tarixinin, həmçinin Azərbaycanın qərb bölgələrində və Naxçıvanda məskunlaşan Etiuni tayfalarının yadellilərə qarşı mübarizəsinin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir.

**Xəbərlər şöbəsi**

## "Müasir Naxçıvan rənglərin işığında" adlı rəsm sərgisi keçirilib

*Naxçıvan Müəllimlər İnstitutunda Təsviri incəsənət müəllimliyi ixtisası III kurs tələbələrinin Naxçıvanın müasir şəhər mənzərələrinə həsr olunmuş rəsm sərgisi təşkil olunub.*



Sərgini giriş sözü ilə açan institutun rektoru Azad Novruzov qeyd edib ki, müasir dövrdə iqtisadi sahədə xeyli nailiyyətlər əldə olunmuş, muxtar respublikada tikinti-quraşdırma və abadlıq sahəsində çoxsaylı inzibati binalar, sosial obyektlər tikilmiş, yüksək səviyyədə quruculuq və abadlıq işləri görülmüşdür. Rektor bildirib ki, Təsviri incəsənət müəllimliyi ixtisası üzrə təhsil alan tələbələr müasir Naxçıvanın görünüşünü çəkdikləri rəsm əsərlərində əks etdirməklə yanaşı, onları qorumalı və gələcək nəsillərə ötürməlidir.

Vurğulanıb ki, muxtar respublikada və Naxçıvan Müəllimlər İnstitutunda mütəmadi olaraq sərgilərin keçirilməsi, tələbələrin yaradıcılıq fəaliyyətlərinin işıqlandırılması istedadlı gənclərin daha həvəslə çalışmaları üçün stimul olur. Tələbələrimiz çalışmalıdır ki, onlar üçün yaradılmış bu şəraitdən yüksək səviyyədə istifadə etsin və üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirsinlər.

İnstitutun ixtisasartırma və yenidən hazırlanma üzrə prorektoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Həbibə Allahverdiyeva çıxış edərək bildirib ki, yüksək zövqlə, peşəkarlıqla, Şərq və Qərb memarlıq elementlərindən ustalıqla və yerli-yerində istifadə etməklə tikilən binalar aparılan böyük quruculuq və abadlıq işlərinin yüksək səviyyədə görüldüyünü təsdiq edir. Belə müasir, gözəl görüntülər Təsviri incəsənət müəllimliyi ixtisasının tələbələrinin marağına səbəb olub, onlar şahidi olduqları bu yenilikləri, gözəllikləri öz əsərlərində yüksək səviyyədə əks etdiriblər.

Sonra sərgiyə baxış keçirilib. Sərgidə mənzərə janrının bir növü olan şəhər mənzərələri üslubunda kompozisiya quruluşu, rəng koloriti etibarilə bir-birindən gözəl 18 əsər nümayiş olunub.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

*Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin əməkdaşları Avropa Birliyinin Erasmus + LMQS layihəsi çərçivəsində Yunanıstanda təlimlərdə olublar.*

## Tibb fakültəsinin əməkdaşları Yunanıstanda təlimlərdə olublar




Avropa Birliyinin Erasmus+ LMQS "Rusiya Federasiyası, Qazaxıstan və Azərbaycanda səhiyyədə strateji keyfiyyət menecmenti və risklərin idarə olunması üzrə açıq və distant təhsil formatında peşə bakalavrı və magistri" layihəsi çərçivəsində layihənin koordinatoru Qərbi Attika Universitetinin təşkilatçılığı ilə Yunanıstanda növbəti təlimlərə start verilib. Ali təhsil ocağının Tibb fakültəsinin Ümumi təbabət və klinik fənlər kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Elmar Rzayev, həmin kafedranın baş müəllimi Güllü Səfərova, Əczaçılıq və biokimya kafedrasının laborantı Lalə Həsənli Yunanıstanın Qərbi Attika Universitetində LMQS layihəsi üzrə keçirilən təlimlərdə iştirak ediblər.

Avropa Birliyinin layihə üzrə baş koordinatoru Yunanıstanın Qərbi Attika Universitetinin professoru Panos Yannakopoulos layihə barəsində məlumat verib. Sonra sahə mütəxəssislərinin iştirakı ilə Strateji keyfiyyət menecmenti və səhiyyədə risklərin idarə olunması sahəsində bacarıq və ehtiyacların təlimi və peşə hədəflərinin identifikasiya anketinin həyata keçirilmə metodologiyası üzrə mühazirələr oxunub.

Attika Universitetinin idarəçilik və keyfiyyət üzrə ekspertinin keçdiyi təlimdə birgə tədris proqramlarının təşkil olunması, ikili diplom məsələləri müzakirə edilib. Azərbaycan və Qazaxıstan universitetləri ilə qarşılıqlı fikir mübadiləsi aparılıb. Yunanıstanın Təhsil Akademiyası, Milli kitabxana, İctimai səhiyyə sistemi, Onkoloji xəstəxana ilə tanış olan nümayəndə heyəti üçün müxtəlif sahələr üzrə ekspertlərin təlimi təşkil edilib. Səfər müddətində Yunanıstanın tarixi yerlərini ziyarət edən qonaqlara keçirilən təlimlər üzrə material toplusu da təqdim olunub. Səfər müddətində nümayəndə heyəti Azərbaycanın Yunanıstandakı səfirliyinin dəvəti ilə 28 May – Müstəqillik Günü münasibətilə təşkil edilən tədbirdə də iştirak edib.

Qeyd edək ki, layihənin əsas məqsədi Avropa Birliyinin Erasmus+ LMQS "Rusiya Federasiyası, Qazaxıstan və Azərbaycanda səhiyyədə strateji keyfiyyət menecmenti və risklərin idarə olunması üzrə açıq və distant təhsil formatında peşə bakalavrı və magistri" layihəsini həyata keçirməkdir.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Batabatda keçirilən "Xalq yaradıcılığı günü" yaddaşlara yazıldı

*Hər bir xalqın milli dəyərləri, adət-ənənələri, dünyagörüşü və həyat tərzi onun xalq yaradıcılığı nümunələrində özünü bütün yönləri ilə təzahür edir. Ən qədim zamanlardan yaranmağa başlanmış və tarixi-mədəni, eləcə də bədii irsimizin daşıyıcısı olan xalq yaradıcılığı əsrlərboyu cilalanaraq, böyük inkişaf yolu keçərək dövrümüzə qədər gəlib çıxıb. Azərbaycanın qədim yaşayış məskənlərindən olan Naxçıvan torpağında da özünəməxsus folklor nümunələri tarixən mövcud olub. Bu dəyərli söz inciləri xalqımıza xas milli xüsusiyyətləri, adət-ənənələri, həyat və məişət tərzini özündə ehtiva edir. Bu da, xüsusilə qeyd olunmalıdır ki, dünənə ehtiramın ifadəsi kimi, muxtar respublikamızda milli-mədəni irsin yaşadılması, tarixi abidələrimizin bərpası və qorunması, yubileylərin qeyd edilməsi, qədim adət-ənənələrimizin dirçəldilməsi və yaşadılması, xalq yaradıcılığına diqqət və qayğı bu günümüzün reallığına çevrilib.*

Xalqımızın min illərboyu yaratdığı bu milli-mənəvi dəyərləri yaşatmaq, təbliğ etmək, öyrənmək və bu dəyərləri gənc nəslə aşılamaq mühüm əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov xalq yaradıcılığı nümunələrinin qorunması və gələcək nəsillərə ötürülməsinin əhəmiyyətini vurğulayaraq deyib: ***"Milli dəyərlərə bağlılıq tarixi-mədəni irsin qorunmasından başlayır. Biz bu gün tarixi abidələri tədqiq və bərpa etməklə, milli dəyərləri yaşatmaqla, bir tərəfdən keçmişimizə və gələcəyimizə ehtiramımızı bildiririk, digər tərəfdən isə xalqımızın əsrlərboyu formalaşmış sənətkarlıq mədəniyyətini, həyat tərzini, məişətini, bir sözlə, milli dəyərlər sistemini yaşadırıq. Ulu öndərimiz tövsiyə edirdi ki, gələcək uğurlara təminat xalqın milli dəyərlərini gənc nəslə aşılamaqdan başlayır. Bu mənada, gənclərlə aparılan işlərdə milli dəyərlərə üstünlük verməli, Azərbaycançılıq ideyasını gücləndirməli, istedadlı gəncləri xalq sənəti sahələrinə cəlb etməliyik. Milli dəyəri olmayan xalqın keçmişi olmadığı kimi, gələcəyi də yoxdur. Bu səbəbdən də milli dəyərlər, xalq yaradıcılığı, əsrlərboyu yaranan mənəvi və maddi mədəniyyət nümunələri ətraflı öyrənilməli, ənənəvi sənət sahələrinin dirçəldilməsi, onların tətbiq və təbliğ olunması istiqamətində işlər davam etdirilməlidir".***



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamına əsasən qədim diyarımızda milli-mənəvi dəyərlərimizin qorunması, təbliği və gələcək nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən tədbirlər unudulmaqda olan milli dəyərlərin yaşadılmasına xidmət edir. Ali Məclis Sədrinin Sərəncamından sonra muxtar respublikamızın bütün bölgələrində xalq yaradıcılığının müxtəlif sahələrinə yeni həyat verilib.






Dilbər guşəmiz Şahbuz rayonunda da xalq sənətinin və yaradıcılığının ağacişləmə, xalçaçılıq, papaqçılıq, dülgərlik, dəmirçilik, toxuculuq, zərgərlik, misgərlik sahələri ilə yanaşı, qədim rəqslərimiz, xalq oyunlarımız və mərasim tamaşalarımız yaşadılır. Artıq qədim diyarımızda ənənə halını alan belə tədbirlərin davamı kimi 28 May – Müstəqillik Günü münasibətilə Şahbuz rayonunun ən füsunkar guşələrindən olan Batabat yaylağında keçirilən "Xalq yaradıcılığı günü" də sakinlər və qonaqlar tərəfindən maraqla qarşılandı.

Tədbirdə Şahbuz Rayon Mədəniyyət Şöbəsinin tabeliyindəki uşaq musiqi məktəblərinin ansambllarının, mədəniyyət evləri və klubların dərnək üzvlərinin, rəqs və yallı qruplarının, eləcə də folklor kollektivlərinin ifasında "Köçəri", "El yallısı" və "Ağababa", "Tənzərə" yallıları, "Gülə-gülə", "Sudan gələn sürməli qız" və "Ay dili-dili dilavər" xalq mahnıları, "Ruhani" saz havası, "Hodu-hodu" xalq oyunu, "Azərbaycan ritmləri" və digər xalq yaradıcılığı nümunələri təqdim edilib. Kollektivlərin ifaları alqışlarla qarşılanıb.



Tədbirdə iştirak edən qonaqlara nümunəvi ictimai iaşə ximətləri də göstərilib. Rayonda fəaliyyət göstərən ailə təsərrüfatları tərəfindən hazırlanan bir-birindən ləziz təamlar iştirakçıların diqqətini cəlb edib.

Bakı şəhər sakini ***Pərvanə Qulamova*** bizimlə söhbətində qeyd etdi ki, Naxçıvana ilk səfəridir: – Naxçıvan başdan-başa təbiət muzeyidir. Xüsusilə havası çox gözəldir. Hər tərəf təmiz və səliqəlidir. Etiraf edim ki, bura məni, həqiqətən də, valeh etdi. Bu qədim diyarda qədimliklə müasirliyin vəhdəti var. Səfərimiz zamanı heyranedici təbiəti olan Batabatda "Xalq yaradıcılığı günü" tədbirinə təsadüf etməyimiz isə bizi çox sevindirdi. Burada Naxçıvana xas olan təamlardan daddıq, qədim diyarın folklor nümunələrini izlədik, musiqi nömrələrini dinlədik və bu da səfərimizə xoş təəssüratlar qatdı. Şahidi olduq ki, qədim Naxçıvan torpağında adət-ənənələrimiz, milli dəyərlərimiz, xalq yaradıcılığı nümunələrimiz qorunur, yaşadılır.

Naxçıvan şəhər sakini ***Musa Rəhmanov*** ilə də həmsöhbət olduq: – Batabat yaylağı ilin hər fəslində gözəldir. Elə ki havalar isindi həm şəhərin səs-küyündən uzaqlaşmaq, həm də ruhən dincəlməyin ən ideal məkanıdır Batabat. Burada heyranedici gözəllikləri seyr etdikcə, həqiqətən, insanın ruhu sakitləşir, düşünürsən ki, bu məkan sanki rəssamın qüsursuz bir tablosudur. Bu gün burada keçirilən bu tədbir də ailəmiz üçün çox sevindirici oldu. Ona görə ki, övladlarımıza adət-ənənələrimizi, milli dəyərlərimizi aşılamağın bundan yaxşı yolu ola bilməz. Tədbirin təşkilatçılarına minnətdarlığımı bildirirəm.

"Qədim diyarımız olan Naxçıvan bu gün turistlərin marağında olan ideal məkandır", – deyən Sumqayıt şəhər sakini ***Solmaz İbrahimli*** bildirdi ki, Naxçıvan zəngin coğrafi mühiti, tarixiliyi, füsunkar təbiəti ilə buraya üz tutan hər kəsi özünə heyran edir. Buranın gözəlliyi, təmizliyi, ecazkar təbiəti haqqında çox eşitmişdim. "Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır" atalar sözünə uyğun olaraq üz tutduq bu valehedici diyara. Müəllim yoldaşlarımızla birgə ekskursiya çərçivəsində Naxçıvanın bir çox görməli yerlərinə getdik. Qədim diyarın çoxəsrlik tarixini özündə yaşadan Möminə xatın türbəsi, Xan sarayı, Əlincəqala, zəngin təbiətin ən gözəl nümunəsi olan Ağbulaq İstirahət Mərkəzi insanı özünə valeh edir. Amma artıq getdiyimiz hər bir bölgədə gördüklərimizdən, insanların səmimiyyətindən xeyli məmnun olduq. Batabat yaylağına bir neçə gün öncə gəlməyi nəzərdə tutmuşduq. Sosial şəbəkələrdə burada keçirilən tədbir haqqında xəbər tutduğumuzdan bu məkana edəcəyimiz səfəri elə bu günə planlaşdırdıq. Nə yaxşı ki bu gün buraya üz tutmuşuq. Yaylağın əsrarəngiz görüntüsü ilə bərabər belə bir tədbirdə iştirak etmək bizim üçün çox xoş oldu. Son olaraq onu da qeyd edim ki, bütün bunlardan əlavə Naxçıvan həm də ata-babalarımızdan miras qalan adət-ənənələrin yaşadıldığı yer kimi yaddaşımda əbədi qalacaqdır.

*Müstəqillik Günü – ümummilli lider Heydər Əliyevin tarixi siyasi xidmətləri sayəsində Azərbaycanın dövlət müstəqilliyinin bərpası və qorunması nəticəsində qazanılan möhtəşəm nailiyyətlər ilə bu tarixi əlamətdar gün ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da böyük ruh yüksəkliyi ilə qeyd olundu. Vətən azadlığı, ərazi bütövlüyü təminatı ilə yanaşı, xalqımıza milli-mənəvi dəyərləri, maddi-mədəni irsimizi də yenidən bəxş edən bu ümumxalq bayramında gözəlliklər məkanı Batabatda keçirilən "Xalq yaradıcılığı günləri" də yaddaşlara ikiqat bayram ovqatı ilə yazıldı.*

**Pərviz HACILI**
***"Oğuz səsi" qəzetinin redaktoru***

# Xoşbəxt olsun uşaqlar...

## Qəhrəman Vətən oğullarının əziz övladları dövlətimiz və xalqımız üçün qiymətli əmanətdir

*Bu yazı Azərbaycan Ordusunun parlaq qələbəsi ilə bitən Vətən müharibəsində qəhrəmanlıq nümunəsi göstərərək şəhidlik zirvəsinə ucalan igid Vətən oğullarımızın Vətənlə yanaşı, əmanət qoyub getdikləri, bizim üçün əziz şəhidlərimizin müqəddəs ruhu qədər əziz olan övladlarına ithaf edilir.*




Vətən müharibəsində qəhrəmanlıqla şəhid olan Fərmin Əliyevin şəhadətə yüksəlməsindən 23 gün sonra dünyaya göz açan övladı ***Fərman Əliyev***in 10 yaşında yaşayacaqları, atası barədə öyrəndikləri, düşüncələri öz dilindən təsvir edilib. Zaman, məkan və hadisələrin gedişatı ilə bağlı müəyyən qədər təxəyyüldən istifadə olunub...

*...Nə az, nə də çox, artıq 10 il ötür o möhtəşəm tarixi zəfərimizdən, əzəli torpaqlarımızın əbədi nicatından. Və bir də Vətən uğrunda qanlar tökən, canlar qurban verən bütün qəhrəman oğullar kimi sənin şəhadətə yetməndən keçir bu zaman müddəti, ata. Anam deyir ki, sən şəhidlik zirvəsinə ucaldıqdan 23 gün sonra dünyaya gəlmişəm, sağ ikən sənin arzunla, istəyinlə babam Fərmanın adını qoyublar mənə. Dövlətimizin hərtərəfli qayğısı ilə, ailəmizə hədiyyə olunan evdə bütün ehtiyaclarım təmin olunub, artıq böyüyüb yaşa dolmuşam. Bir vaxtlar təhsil aldığın, gözəl tədris şəraitinə malik, yaraşıqlı məktəbdə indi mən oxuyuram. Müəllimlərim tez-tez II Qarabağ müharibəsində qazanılan Böyük Qələbədən, sənin kimi yüzlərlə qəhrəman övladların şücaətindən, cəsarətindən danışır, bu barədə inşalar yazmağı tapşırırlar bizə. Növbəti inşamda səndən bəhs etməyi düşündüm. Üzünü görə bilməsəm də, şəkillərdən tanıdığım, anamdan, böyüklərdən haqqında çox eşitdiyim atam Fərmin Əliyevin igidliyindən, mərdliyindən, insaniyyətindən danışmaq istəyirəm sizə...*

*1996-cı il martın 20-də Babək rayonunun Şıxmahmud kəndində dünyaya göz açmışdı qəlbi təmiz, mülayim xasiyyətli, mehriban, vətənpərvər atam. Babam, nənəm elə hey deyirlər ki, atana oxşamısan, o da balaca vaxtı sənin kimi sözə qulaq asan, təmizkar, səliqəli, hər şeyə diqqət yetirən, arabir də dəcəlliyindən qalmayan idi. Söylənənlərə görə, atam məktəbdə oxuyanda Azərbaycan dili və ədəbiyyat fənninə böyük maraq göstərib. Çox gözəl intonasiyası, şeir söyləmək qabiliyyəti var imiş... Sən demə, Vətənə olan məhəbbəti hələ yeniyetməlik dövründən dilindən, qəlbindən, davranışlarından oxunur, vətənpərvərlik hissi xarakterində tüğyan edirmiş atamın. Şıxmahmud kənd tam orta məktəbinin 9-cu sinfini bitirdikdən sonra – 2011-ci ildən Heydər Əliyev adına Hərbi Liseydə təhsilini davam etdirməyi də, bu mənada, heç də təsadüf deyilmiş. 2014-2018-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Xüsusi təyinatlı texnika və sistemlər ixtisasına yiyələnən atam Tərtər rayonundakı hərbi hissədə xidmətə başlayıb. Çevikliyi, bacarığı, nizam-intizamı ilə qısa zamanda fərqlənə bilib və elə buna görə də bir müddət sonra Mingəçevir şəhərinə xüsusi təyinatlı olaraq göndərilib.*

*Anam deyir ki, atan müharibənin ilk günündən döyüşlərə qatılaraq Talış kəndinin azad edilməsində xüsusi qəhrəmanlıq nümunəsi göstərib. Vətənin mərd oğlu şiddətli döyüşlərin birində 30 nəfərlə mühasirəyə düşsə də, qətiyyən özünü itirməyib, mühasirəni yararaq döyüş yoldaşlarını da düşmənin qəfil hiyləsindən xilas edib. Müharibənin birinci günü evə zəng edibmiş. Anamla telefon danışığında deyib ki, atamı, anamı, sizi sevdiyim qədər Vətənimi də sevirəm. Mən şəhid olsam, siz Vətənə, dövlətimizə əmanətsiniz. Sən güclü və ağıllı qadınsan. İnanıram ki, bütün çətinliklərin öhdəsindən layiqincə gələcəksən. Dünyaya göz açacaq övladımıza da yaxşı baxarsan. Qismət olsa, görüşərik... Çox təəssüf ki, bu görüş nə anama, nə də mənə qismət oldu... Sentyabrın 29-da şəhidlik zirvəsinə ucalıb atam, 23 gün sonra isə mən dünyaya gəlmişəm.*

*Oktyabrın 1-də Naxçıvana şəhid kimi ilk gələnlərdən olub dağ vüqarlı atam. Anam deyir ki, Ali Məclisin Sədri atanın, sonra isə bütün Naxçıvana gətirilən II Vətən müharibəsi şəhidlərinin qarşılanma mərasimində iştirak edib, ailəmizlə yaxından maraqlanıb, yas mərasimi yüksək səviyyədə təşkil edilib, ondan sonra da dövlətimiz daim arxamızda durub, öz köməyini əsirgəməyib. İndi də daim bizimlə maraqlanırlar, tez-tez baş çəkir, hal-əhvalımızı soraq alırlar, ildönümlərində evimizə ziyarətə gəlirlər, komandir yoldaşları, əsgərləri atamla bağlı xatirələrini danışmaqdan yorulmurlar. Məktəbdə də dövlətimizin qayğısını daim hiss edirəm, müəllimlərim, şagird yoldaşlarım hörmətlə yanaşırlar mənə. Hər gün dərsə getməzdən öncə atama aid otağı ziyarət edir, şəhadətə yüksəlməsindən sonra təltif olunduğu "Azərbaycan bayrağı" ordeninə, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medallarına, şəxsi əşyalarına, formasına, ən əziz günlərində belə yanından ayırmadığı, sevdalısı üçrəngli bayrağımıza fəxrlə baxır, layiqli övlad olmaq üçün dərslərimi yaxşı oxuyacağıma söz verirəm.*

*Deyirlər ki, şəhidlər ölmür, onlar cənnətin mələkləridir. Yəqin ki, sən də indi cənnətdən seyr edirsən bizi. Bilirəm ki, ruhun şaddır. Çünki uğrunda canını fəda etdiyin torpaqlar azaddır, Qarabağın hər qarışı günü-gündən daha da gözəlləşir, əzəli yurdumuz əbədi görkəminə qovuşur, gözəl, yaraşıqlı binalar ucaldılır, yollar salınır, tarixi abidələrimiz bərpa edilir. Dağ vüqarlı igid atam, mübarək ruhun qarşısında söz verirəm ki, yaradılan hərtərəfli imkanlardan səmərəli istifadə edib, gözəl şəraitdə dərslərimi səlis şəkildə oxuyacaq, alitəhsilli, Vətənimə, o müqəddəs zirvənə layiq olmağa çalışacağam. Ruhun şad, məqamın mübarək olsun, mənim qəhrəman atam...*

* * *

Vətən müharibəsində şəhid olan kapitan Şamil Babayevin oğlu ***Yusif Babayev*** 2014-cü il sentyabr ayının 26-da Naxçıvan şəhərində anadan olub, hazırda Naxçıvan şəhər 10 nömrəli tam orta məktəbin II sinfində təhsil alır. Atasının əbədi yaşadığına inanır, ona tez-tez məktub yazmağı xoşlayır:

*"Salam, qəhrəman atam! Necəsən? Mən fəxr edirəm ki, sənin kimi qəhrəman atam var. Ata, eşitmişəm ki, sən Şuşanı azad etmisən. Orada qəhrəmancasına vuruşmusan. Özün yaralı olsan da, əsgərlərini qorumusan, onlara kömək etmisən. Ata, sən həmişə yaraşıqlı, gülərüz, mehriban, qayğıkeş ata olmusan. Mən səninlə keçirdiyim günlər üçün çox darıxıram. Sənin bütün əşyaların mənə əmanətdir, onları qoruyacağam. Biz anamla sənin şəkillərinə baxırıq və sənin üçün darıxırıq. Ata, sənə söz verirəm ki, mən yaxşı oxuyacağam, sənin adına layiqli övlad olacağam, inşallah. Bilirəm ki, sən kapitan olmusan, mən də böyüyəndə kapitan olacağam. Anam həmişə namaz qılanda ruhuna dua eləyir. Sənin haqqında danışanda deyir ki, atan bizim yanımızda olmasa da, həmişə səni görür. Mən də böyüyəndə anamı, Ana Vətənimi sənin qoruduğun kimi qoruyacağam. Sənin kimi Vətənimi, bayrağımı çox sevirəm. Ata, səninlə və anamla keçirdiyim gözəl günləri unutmayacağam. Səni sevən Yusifin!"*

Qeyd edək ki, Babayev Şamil Baloğlan oğlu 1988-ci il yanvarın 1-də doğulmuşdu. İlk təhsilini Camaldın kənd tam orta məktəbində aldıqdan sonra 2005-ci ildə hərbi xidmətə başlamışdı. Əvvəlcə Daxili Qoşunların Xüsusi Təyinatlı dəstəsində xidmət keçib, 2012-ci ildə Daxili Qoşunların Ali Hərbi Məktəbinə qəbul olmuşdu. 2014-cü ildə buranı bitirdikdən sonra xüsusi təyinatlı dəstənin "Atəş təminat qrupunun" komandiri vəzifəsinə təyin edilmişdi. Zabit Şamil Babayev 2018-ci ildən Türkiyədə xüsusi təlimlərə cəlb olunmuşdu, 2020-ci ildə kapitan hərbi rütbəsi almışdı. Türkiyədə və Azərbaycanda müxtəlif fəxri fərmanlar və "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilmişdi. O, II Qarabağ müharibəsi zamanı Füzuli, Hadrut və Şuşa istiqamətində gedən döyüşlərdə xüsusi şücaət göstərib. Döyüşlər zamanı bir neçə yerdən yaralanıb və yaralı halda döyüşə davam edib. Lakin Şuşanın azad edilməsini görmədən şəhidlik zirvəsinə ucalıb. 2020-ci il noyabrın 13-də qəhrəmanın nəşini bütün Naxçıvan böyük izdihamla qarşılayıb və Şamil Babayev doğulub boya-başa çatdığı Camaldın kəndində dəfn edilib. Ölümündən sonra "Zəfər" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.




Şamil Babayevin ölmədən öncə "Şəhid olsam, qəlbimin üstündə daşıdığım bayrağı məzarımda başımın altına qoyarsınız" arzusu yerinə yetirilib.

* * *

Şəhid əsgər Sərxan Salahovun qızı ***Məryəm Salahova*** 2014-cü ildə Şərur rayonunun Ələkli kəndində anadan olub, hazırda Şərur şəhərindəki 2 nömrəli tam orta məktəbin II sinfində təhsil alır:

– *Mənim atam, həqiqətən, igid, qəhrəman insan olub. Atam deyirdi ki, müharibə başlasa, ilk mən gedəcəm. O bizə həmişə Qarabağın işğaldan azad olunacağını deyirdi. Vətən müharibəsinə çağırılanda sanki onun həyatında yeni bir gün başlamış kimi sevinirdi. Əynində hərbi formanı görmək onun çoxdankı arzularının həyata keçməsi idi. Müharibəyə gedərkən bizi – anamı, məni, bacımı nə qədər sevdiyinin bir daha şahidi olduq. Gedərkən hər birimizə anamızın sözlərinə, məsləhətlərinə qulaq asmağı, bir-birimizdən muğayat olmağı tapşırdı. Atam imkan olanda cəbhədən zəng edərdi. Amma bu zənglər çox qısa olardı. Heç bir vaxt harada olduğunu deməzdi. "Hər şey yaxşıdır. Düşmənin məğlubiyyətinə az qalıb", – deyərdi. Atamın ən böyük arzusu, təbii ki, Vətənimizin bütövlüyü idi. Hansı ki bu gün o bütövlüyə qovuşmuşuq. Atamın şəhid olması, şəhidlik adını qazanması məni çox qürurlandırır. Heç vaxt deməram ki, atam şəhid olub deyə üzgünəm. Bəlkə, yol qəzasında dünyasını dəyişsəydi, onun yoxluğuna dözə bilməzdim. Amma onun mənə şəhid qızı adını miras qoyması ən böyük təsəllimdir. Küçəyə çıxıram, yola çıxıram, məhəlləyə çıxıram, hər kəs mənə şəhid Salahovun qızı kimi sevgi ilə yanaşır. Bütün bunlara görə atama borcluyam. O bizim yaxşı oxumağımızı, ali təhsil almağımızı həmişə arzu edərdi. Bacımla mən daha çox çalışaraq yaxşı oxuyacağıq ki, onun bu arzusunu gələcəkdə yerinə yetirək.*

Qeyd edək ki, Sərxan Salahov 1991-ci ildə Ələkli kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra 2009-cu ildə "N" hərbi hissədə xidmətə başlayıb. Müharibənin ilk günündən döyüşlərdə qəhrəmancasına iştirak edərək noyabrın 2-də şəhid olub. Ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilib.

*Xalq şairi Bəxtiyar Vahabzadə demiş:*

*Yüz-yüz itən olsun,*
*Min-min də bitən var.*
*Şükr eyləyəlim ki,*
*Bizlərdən həm əvvəl,*
*Həm sonra Vətən var.*

*İgid Vətən oğullarının bizlərə Vətən qədər dəyərli əmanətləri olan övladları da Vətəni göz bəbəyi kimi qoruyacaq, candan əziz tutacaq gələcək cəsur əsgərlər, Vətən müdafiəçiləridir! Onlar dövlətimizin və xalqımızın qayğı və nəvazişi altında, cəsur, qəhrəman atalarını özlərinə həyat idealı seçərək daha vətənpərvər, daha cəsarətli və əzmkar ruhda böyüyürlər! Qalib və məğrur xalqın övladları kimi... Qoy bir də heç zaman Vətən səmasını qara buludlar almasın, bu torpaq qan-qada, müharibə dəhşətləri görməsin! Xoşbəxt olsun uşaqlar...*

*Qələmə aldı:*

**Nail ƏSGƏROV**
**Güntac ŞAHMƏMMƏDLİ**
**Aytac CƏFƏRLİ**

## Magistraturaya qəbul imtahanı keçirilib

*Mayın 29-da Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul imtahanı (II cəhd) və peşəkar mühasib sertifikatı almaq istəyən namizədlər üçün test imtahanının II mərhələsini keçirib.*

Magistratura səviyyəsinə qəbul imtahanı respublikanın 6 şəhər və rayonunda – Bakı, Sumqayıt, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəranda, ümumilikdə, 61 binada aparılıb. İmtahanda 14 min 843 bakalavr iştirak edib. Onlardan 13 min 796 nəfəri Azərbaycan bölməsi, 1047 nəfəri isə rus bölməsi üzrə imtahan verib.

Naxçıvan Muxtar Respublikasında imtahanlar Naxçıvan şəhər 5 və 14 nömrəli tam orta məktəb binalarında təşkil olunub. 525 bakalavrın iştirak etdiyi imtahanın idarə olunmasına 6 rəhbər, 53 nəzarətçi cəlb edilib. İmtahan nəticələri yazılı cavab tələb edən tapşırıqların yoxlanılması ilə əlaqədar yaxın 10 gün ərzində elan olunacaq.

**Xəbərlər şöbəsi**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Uşaqlar arasında dövriyyəsi qadağan edilən zərərli informasiyalar hansılardır?***

***Cavab:*** Qanunvericiliyə əsasən uşaqlar üçün nəzərdə tutulmayan və uşağın fiziki və ya psixi sağlamlığına mənfi təsir göstərən, o cümlədən təhrif olunmuş sosial təsəvvürlərin formalaşdırılması vasitəsilə onların mənəvi, psixi, fiziki və ya sosial inkişafında pozuntu yaranmasına səbəb olan məlumatlar uşaqlar üçün zərərli informasiya hesab olunur. Zorakılığı və qəddarlığı, cəmiyyət əleyhinə və hüquqazidd hərəkətləri, o cümlədən cinayətləri, uşaqların həyat və təhlükəsizliyinə potensial təhlükə yaradan əməlləri təbliğ edən, habelə ailə institutunu nüfuzdan salan, əxlaqdan kənar leksik (söyüş) məzmunlu və pornoqrafik xarakterli informasiyalar uşaqlar arasında dövriyyəsi qadağan edilən zərərli informasiyalardır.

Uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiya məhsullarının uşaqların ola biləcəyi yerlərdə inzibati, texniki proqram və avadanlıq vasitələrinin tətbiq edilmədən yayılmasına yol verilmir.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## Elan

"Babək Sirab" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi səhmdarların nəzərinə çatdırır ki, 16 iyun 2022-ci il tarixdə saat 11⁰⁰-da cəmiyyətin inzibati binasının iclas zalında səhmdarların iclası keçiriləcək.

Gündəlikdə duran məsələlər:

1. *Görülən işlərin illik hesabatı*
2. *Görüləcək işlər barədə.*

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 472